**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 259/3** **27 dekabr 2014-cü il**

**“Auditin statistik göstəricilər sisteminin işlənib hazırlanması və tətbiqi” barədə**

“Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyası”nın (2012-2020-ci illər) VI bölməsinin 17-ci bəndinə və Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 1.14-cü maddəsinə uyğun olaraq “Auditin statistik göstəricilər sisteminin işlənib hazırlanması və tətbiqi”nə dair sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** “Auditin statistik göstəricilər sistemi» təsdiq edilsin (əlavə olunur).

**2.** Auditor təşkilatlarına və sərbəst auditorlara tapşırılsın ki, “Auditin statistik göstəricilər sisteminin işlənib hazırlanması və tətbiqi”nə dair hesabata əlavə edilmiş 1 və 2 nömrəli əlavələrin əvvəlki hesabat ili üzrə doldurulub 2015-ci il 01 iyun tarixinədək elektron qaydada Auditorlar Palatasına təqdim olunmasını təmin etsinlər.

**3.** Palatanın Keyfiyyətə nəzarət və hüquqi təminat İdarəsinə (M.Abbasov), Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov), Maliyyə və təsərrüfat İdarəsinə (V.Rəhimov), Analitik informasiya və təhlil şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, «Auditin statistik göstəricilər sistemi»nə uyğun olaraq göstəricilərin əldə edilməsi, emalı və tövsiyələrin hazırlanması ilə bağlı zəruri tədbirlərin vaxtında və keyfiyyətlə görülməsini təmin etsinlər.

**4.** Sədrin müşaviri F.Qarayevə və Aparatın İnformasiya texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**